
Şamaxı UİM

# Uşaqlarımızın yaradıcılığı
## daim dövlətimizin diqqət mərkəzindədir

**Son illər mədəniyyət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, onların fəaliyyətlərinin əhəmiyyətli dərəcədə yeniləşdirilməsi və canlandırılması, milli mədəniyyətimizin inkişafı və təbliğində müstəsna xidmətləri olan sənətkarların yaradıcılığına lazımi qiymət verilməsi, gənc istedadların dəstəklənməsi, qocaman mədəniyyət xadimlərinə mükafat və təqaüdlərin ayrılması istiqamətində mühüm addımlar atılır. Xüsusi minnətdarlıq hissi ilə vurğulamalıyıq ki, bütün bunlar respublika rəhbərliyinin mədəniyyətimizə və sənət adamlarına göstərdiyi böyük diqqət və qayğının təzahürüdür.**

**Azərbaycan Respublikasının birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mədəniyyət sahəsində irəli sürdüyü təşəbbüslər, onun himayəsi ilə həyata keçirilən proqram və layihələr misilsiz əhəmiyyətə malikdir. Mehriban xanım Əliyevanın dəstəyi ilə Azərbaycan muğamı, Aşıq sənəti, Novruz bayramı, Xalça sənəti YUNESKO-nun Qeyri-maddi irsinin Reprezentativ siyahısına salınmışdır.**

Mədəniyyət və Turizm Nazirliyi milli mədəniyyətin bəşər mədəniyyətinin tərkib hissəsi kimi inkişaf etdirilməsi, mədəniyyət sərvətlərinin qorunması və artırılması sahəsində dövlətin siyasətini həyata keçirir. Nazirliyin fəaliyyəti dövlət mədəniyyət sisteminin elmi və mütərəqqi metodlarla idarəçiliyinin təmin edilməsinə, mədəniyyətin inkişafına dair milli proqramların hazırlanması və həyata keçirilməsinə yönəldilir.

Mürəkkəb və çoxşaxəli sosial-mədəni proseslərin proqnozlaşdırılması, bu prosesdə iştirak edən sistemlərin idarə olunma modelləri və prinsiplərinin modernləşməsi məsələləri sahənin inkişafında mühüm rol oynayır.

Təsadüfi deyil ki, Mədəniyyət və Turizm Nazirliyində mədəniyyətə və incəsənətə dair ənənəvi istiqamətlərlə yanaşı, yeni sahələrə, o cümlədən elmin və müvafiq ixtisaslar üzrə təhsilin inkişafına ciddi fikir verilir. Azərbaycan iqtisadiyyatının turizm sahəsinin, habelə turizm təhsilinin sürətli inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 fevral tarixli 45 nömrəli qərarı ilə Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Turizm İnstitutu və Mingəçevir Turizm Kolleci yaradılmışdır. Dövlət başçısının mədəniyyətin təbliği, təşviqi, qorunması və elmi tədqiqatların inkişafına diqqətinin nəticəsi olaraq 2007-ci ilin aprelində Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzi fəaliyyətə başlamışdır .

Ötən müddətdə nazirliyin elmi qurumlarla əməkdaşlıq əlaqələri də genişlənmiş, bu zəmində bir sıra tədbirlər keçirilmişdir. Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq Kulturoloqların Milli Forumu və Kulturoloqların I Beynəlxalq Bakı Forumu, "Müasir Azərbaycan mədəniyyəti: problemlər və perspektivlər" adlı ümumrespublika elmi məqalələr müsabiqəsi keçirilmiş, respublikanın tanınmış alimlərinin iştirakı ilə kulturologiya üzrə mühazirələr, respublikanın şəhər və rayonlarında "Milli mədəniyyət və müasir mədəniyyət siyasəti" mövzusunda seminarlar təşkil edilmiş, elmi məqalələr toplusu nəşr olunmuşdur.

Bundan əlavə, bir sıra elmi konfranslar, o cümlədən Azərbaycan, Böyük Britaniya, Gürcüstan, Fransa, Rusiya nümayəndələrinin iştirakı ilə "Turizm - mədəniyyətlərarası dialoqu təmin edən amil kimi" adlı Tələbələrin I Beynəlxalq Bakı Konfransı, "İslamda mədəniyyət və gözəllik amili" adlı Beynəlxalq Elmi Konfrans, "Mədəniyyətin və mədəni dəyərlərin təbliğində kütləvi informasiya vasitələrinin rolu" adlı beynəlxalq təlim, Moskva şəhərində Rusiya Kulturologiya İnstitutu ilə birgə "Müasir kulturologiya: nəzəriyyədən təcrübəyə" adlı beynəlxalq elmi konfrans təşkil edilmişdir.

Elm və təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində müəyyən işlər görülmüş, Rusiyanın və Gürcüstanın müvafiq elmi qurumları ilə əməkdaşlıq müqavilələri, Azərbaycan Turizm İnstitutu və Avstriya Krems İMC Tətbiqi Elmlər Universiteti arasında və Mingəçevir Turizm Kolleci ilə "Andrei Barseanu" İqtisadi Kolleci arasında turizm sənayesi üçün kadr hazırlığı sahəsində əməkdaşlıq müqavilələri imzalanmışdır.

Uşaqların və gənclərin dünya standartlarına uyğun, yüksək səviyyədə təhsil alması üçün hər cür imkanlar yaradılır, yeni məktəb binaları inşa edilir, tədris ocaqlarının maddi-texniki bazası yaxşılaşdırılır. 2007-2010-cu illərdə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə Bakı Xoreoqrafiya Məktəbinin, uşaq musiqi və incəsənət məktəblərinin 27 nəfər şagirdi xüsusi aylıq təqaüdə layiq görülmüş, onların adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılmışdır.

**Mədəniyyət və Turizm Nazirliyi sistemində 237 uşaq musiqi, incəsənət və rəssamlıq məktəbi fəaliyyət göstərir. Bu məktəblərdə 70 mindən çox şagird təhsil alır.**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı"na əsasən 2006-cı ildə Bakıxanov qəsəbəsindəki 4 saylı, Maştağa qəsəbəsindəki 10 saylı, 2007-ci ildə Mərdəkan qəsəbəsindəki 17 saylı uşaq musiqi məktəblərinin, Biləcəri qəsəbəsindəki F.Əmirov adına 6 saylı Uşaq İncəsənət Məktəbinin binaları əsaslı təmir edilərək istifadəyə verilmişdir. Həmçinin 2007-2010-cu illərdə Bakı şəhər S. Rüstəmov adına 13, Bakı şəhər R.Behbudov adına 2, T.Quliyev adına 12, Gözdən əlil uşaqlar üçün 38 nömrəli uşaq musiqi, Bakı şəhər 4 nömrəli və Sumqayıt şəhər Bülbül adına 2 nömrəli uşaq incəsənət məktəblərinin binaları da əsaslı təmir olunmuşdur.

Bundan əlavə, Ağdaş, Bərdə, Siyəzən rayonlarında uşaq musiqi və incəsənət məktəbləri üçün yeni


Salyan UİM

tipli, müasir standartlara cavab verən məktəb binaları inşa edilmişdir.

Nazirlik tərəfindən hər il respublikanın uşaq musiqi və incəsənət məktəbləri üçün zəruri musiqi alətləri alınır, dərslik və tədris vəsaitləri çap olunur və əvəzsiz olaraq məktəblərə verilir. Qaçqın və məcburi köçkün ailələrindən olan uşaqların incəsənət sahəsinə cəlb olunmalarına, təhsil almalarına xüsusi diqqət yetirilir. Hazırda Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Kəlbəcər, Laçın, Şuşa, Qubadlı, Zəngilan rayonlarının 50 uşaq musiqi və incəsənət məktəbindən 39 məktəb respublikamızın müxtəlif bölgələrində - Bakı, Gəncə, Mingəçevir, Naftalan, Sumqayıt, Yevlax şəhərlərində, Ağcabədi, Abşeron, Beyləqan, Biləsuvar, Goranboy, Saatlı rayonlarında fəaliyyətlərini bərpa ediblər.

Uşaq və yeniyetmələrin yaradıcılıq imkanlarını inkişaf etdirmək, istedadlı gəncləri üzə çıxarmaq məqsədilə Mədəniyyət və Turizm Nazirliyi mütəmadi olaraq baxışlar, festivallar, müsabiqələr, sərgilər keçirir.

Rəqslərdə milli ənənələrin qorunub saxlanılması, xalq rəqslərinin təbliği, istedadlı gənclərin aşkar edilməsi, onların bacarıq və vərdişlərinin daha da inkişaf etdirilməsi məqsədilə Uşaq rəqs kollektivlərinin respublika baxış-festivalları da təşkil edilmişdir.

Ayrı-ayrı alətlər üzrə musiqi təhsilinin inkişaf etdirilməsi, istedadlı uşaqların aşkara çıxarılması, onların dəstəklənməsi və yaradıcılıq potensialının inkişaf etdirilməsi məqsədilə Uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin fortepiano, simli, nəfəsli, zərb, xalq çalğı alətləri üzrə respublika müsabiqələri təşkil olunmuşdur. Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin, Bakı Xoreoqrafiya Məktəbinin şagird və tələbələri dünyanın 20-dək ölkəsində keçirilən müxtəlif beynəlxalq tədbirlərdə - festival, müsabiqə və sərgilərdə mütəmadi olaraq uğurla iştirak edirlər.

Ötən beş il müddətində mədəniyyət və turizm təhsili sahəsində çalışan təcrübəli, peşəkar mütəxəssislərin əməyinə xüsusi qayğı göstərilmiş, ölkə prezidentinin sərəncamları ilə onların əksəriyyətinə ölkənin yüksək mükafat və fəxri adları verilmişdir. 2006-2010-cu illər ərzində 15 nəfər Respublikanın Əməkdar Müəllimi, 10 nəfər Əməkdar Mədəniyyət İşçisi, 1 nəfər Əməkdar İncəsənət Xadimi fəxri adına, 2 nəfər Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 3 nəfər 'Tərəqqi" medalına layiq görülmüş, Bakı Xoreoqrafiya Məktəbinin müəllimi, Xalq artisti Xumar Zülfüqarova "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

**Mədəniyyətimizə, onun inkişaf və təbliğinə verilən bu dəyər, göstərilən diqqət və qayğı hər birimizi daha yaxşı çalışmağa, qarşımızda duran vəzifələri ləyaqətlə yerinə yetirmək üçün bütün imkanlardan maksimum dərəcədə yararlanmağa ruhlandırır...**

**Yaşar ƏLİYEV,**
***Mədəniyyət və Turizm Nazirliyi Elm və təhsil şöbəsinin müdiri***

